Kitablar-kitablar-siz mənəvi həyatımız

# *"Məmləkətin vətən daşı" kitabı haqqında düşüncələr*



*Şəddat CƏFƏROV*
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,***
***Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,***
***Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Bu başlıqların sadəcə emosional hissin təsiri ilə yazılan adi sözlər kimi qəbul edilməsini istəməzdim. Mən kitabları canlı varlıqlar kimi görürəm. Bəlkə də kimlərəsə inandırıcı gəlməz. Mən kitablarla söhbət edirəm, danışıram. Bəzən dialoqlar olur aramızda. Bəlkə də həyat üçün çox gərəkli sualların cavablarını mən elə kitablarla daxili aləmimdə qurduğum dialoqlar zamanı tapıram.

Axı hər bir kitab cəmiyyətdə ayrı-ayrı fərdi adamların səsi deyil. Bu, bütövlükdə müəyyən dövrü, zamanı, insan qruplarını əhatə edən fikir və düşüncələrin məcmusudur.Əgər belə olmasaydı, ən məşhur müəlliflərin kitabları belə könüllərə yol tapa bilməz, cəmiyyətin ümumi sərvətinə çevrilməzdi. Yəqin ki, insanların mənəvi mühitində özünə yer tapmayan kitablar da yaddaşlara hopmadığı üçün tezliklə unudulardı.

Azərbaycanın tarixi taleyində, mənəvi mühitində xüsusi yeri olan, artıq dəyərə çevrilmiş kitablar az deyil. "Dədə Qorqud" kitabı, Nizaminin *"Xəmsə"si, Füzulinin "Leyli və Məcnun"u, Vaqifin "Görmədim"* şeiri, Səməd Mənsurun məşhur *"Rəngidir"* şeiri - bunları necə unutmaq olar?! Mənim nəzərimdə Vaqifin və Səməd Mənsurun həmin şeirlərinin hər biri ayrılıqda bir kitabdır. Yaxud, S.Vurğunun "Mən tələsmirəm", "Şair, nə tez qocaldın sən", "Unudulmuş tək məzar" şeirlərinin hərəsi bir kitab deyilmi?!Mən çox demişəm, kitablar arasında keçən zamanımı həyatımın ən mənalı, maraqlı hissəsi hesab edirəm. Elə bu gün də həyatım kitablar arasında keçir. Taleyini bağladığın, sevib-seçdiyin peşə ruhuna uyğundursa, səni yaşadırsa, bundan əziz, bundan üstün nə ola bilər?

Hər bir kitabı oxuyub onun içərisindən hansısa dəyərli bir fikri əxz etmək olar. Bəzən çox qalın bir kitabın içərisindən cüzi bir şey yaddaşa ilişib qalır və gözləmədiyin halda, yaşın hansısa bir dönəmində həmin fikir yada düşür. Hansısa bir düyünün açılmasında vasitəyə çevrilir. Ötən yazılarımdan birində əlimin altında olan kitabların xarakteristikasını verməyə çalışmışdım. Həmin bölgüdə yer alan kitabların böyük bir qismini mənə dostlar bağışlayıb. Həmin kitabları da vaxt tapdıqca vərəqləyirəm. Məlumat almaq istəyirəm. Bəzən həmin kitablar arasında da mənim üçün ötüb-getmiş zamanı yaddaşımda bərpa edənləri də olur.

Bu günlərdə görkəmli jurnalist-publisist, xüsusilə incəsəntin maraqlı sahələrinə həsr olunmuş yazıları ilə tanınan Fazil Rəhmanzadənin tərtibi ilə nəşr olunmuş *"Məmləkətin vətən daşı"* adlı kitabı mənə hədiyyə olundu.

Hacı Rafiqlə mən qonşu idim. Qonşu olsaq da az görüşürdük; amma görüşəndə çox doğma adam kimi. Lap gənc yaşlarımdan (15 yaş) səhər tezdən evdən işə və çox gec, axşamlar işdən evə gələrdim. Kiçik qardaşım Fərhad Rafiqin oğlu Vüqarla dostluq edərdi. mən də Vüqarla bir neçə dəfə görüşmüşdüm. Atası Hacı Rafiqlə dostluq münasibətimizdən xəbəri vardı. Ona görə də Rafiqin il mərasiminə məni də dəvət etmişdi. *"Məmləkətin vətən daşı"* kitabını da mənə Vüqar mərasimdə təqdim etdi.

*"Məmləkətin vətən daşı"* adlı kitab *"tanınmış jurnalist-publisist Rafiq Əliyevin ömürlüyündən səhifələr"* kimi hazırlanıb.Təkcə elə kitaba aydınlaşdırıcı ad kimi verilmiş bu ikinci ünvan məni xəyalən yaddaşımın qızıl dövrlərinə apardı. 60-70-ci illərdə Azərbaycan jurnalistikası sözün həqiqi mənasında ciddi bir oyanış dövrünü yaşayırdı. Ağababa Rzayev, Hüseyn Mehrəliyev, Tofiq Rüstəmov, Rəşid Mahmudov, Əhməd İsayev, Firudin Rəsulov, Eyvaz Borçalı, Nəriman Zeynalov, Şahin Səfərov, Tükəzban Əsədova, Rafiq Əliyev... Hələ nə qədər görkəmli, əqidəli, prinsipial qələm sahiblərinin adlarını sadalamaq olar. Şübhəsiz, bu adların sırasında Rafiq Əliyevin də adının göstərilməsi təsadüfi deyil. Jurnalistikanın qızıl fondunu yaratmış olan həmin qələm sahibləri bir də ona görə xüsusilə fərqlənirdilər ki, onlar sözün həqiqi mənasında şəxsiyyət idilər. Özlərinin fərdi üslubları ilə, məsələyə yanaşmaq özünəməxsusluğu ilə fərqləndikləri kimi xarakter, şəxsiyyət etibarı ilə də bütöv idilər. Onların bir çoxu ilə mənim şəxsi münasibətlərim də olmuşdu. Bəzilərinin kitablarının nəşr prosesində iştirak etmişəm. Onların sözə necə məsuliyyətlə yanaşmaqlarını görmüşəm. Bunları təsadüfi xatırlatmıram. Çünki indi, demək olar ki, ən saxta xəbəri belə doğru-düzgün adına sırımaq istəyənlərin sayı lap çoxdur. Doğrudur, belələrinə qarşı mübarizə aparılır. Ancaq sanki artıq klassik dəyərə çevrilmiş olan məktəbin jurnalistlər nəsli ilə varislik əlaqəsi çox zəifləyib.

Rafiq Əliyev sanki tarixə qovuşmuş görkəmli jurnaistlərlə müasir dövrün yetirmələri olan yeni nəsil jurnalistlər arasında bir körpü idi.

Yaxşı yadımdadır, Jurnalistlər Birliyinin sədri, görkəmli jurnalist Hacı Hacıyev gənc jurnalistlərə özündən əvvəlki nəsillərdən öyrənməyi təlqin edirdi. Belə iş üslubu, yaradıcılığı, peşəsinə yanaşmasına görə öyrənilməli müəlliflərdən birinin də Rafiq Əliyev olduğunu təkcə H.Hacıyev yox, başqaları da səmimiyyətlə qəbul edirdilər.

Açığı, görkəmli publisist Fazil Rəhmanzadənin tərtibi ilə Rafiq Əliyevə həsr olunmuş kitabın işıq üzü görməsi məni çox sevindirir. Demək, hələ də elə insanlar var ki, onlar cəmiyyətə sözün həqiqi mənasında böyük xidmət göstərmiş şəxsiyyətləri unutmurlar. Kitabın başlanğıcında Fazil Rəhmanzadə öz üslubuna uyğun olaraq klassiklərdən məşhur deyimləri yada salır. Xalq hikmətlərinə güvənclə mövzu üzərinə gəlməyə çalışır. Sanki bununla xatırladır ki, həyatını jurnalistika peşəsinə sədaqətlə həsr etmiş Rafiq Əliyev Azərbaycanın düşüncə məkanında hansı mərtəbədə dayanır. Bundan sonra Fazil Rəhmanzadə "Ön söz"ünün əsas hədəfinə gəlir: *"Ulularımızın tövsiyəsinə binayən hər şeyi adı ilə, düzlüklə təsvirə gətirərək sözün qiymətini qoruyub saxlamağa səy edənlər həqiqi mənada ciddi yazarlar sayılırlar. Bu baxımdan Hacı Rafiq Əliyevi mən məhz beləcə tanıyırdım, məhz müdrik bir qələm sahibi kimi dəyərləndirirdim. Belə bir yanaşma indinin özündə də məni tərk etməyib. O, məhz sözün qüdrətinə söykənərək fikrin izahına, mətləbin dəqiq çatdırılmasına nail olurdu. Rafiqlə ilk tanışlığımız 1952-53-cü illərə təsadüf edir. Biz qonşuluqda yaşayırdıq. Şəhərin yuxarı hissəsində - Nəriman Nərimanovun şərəfinə ucaldılan heykəlin yerində ikimərtəbəli baba mülkümüz vardı. Mən həmin ocaqda dünyaya göz açmışam. Ünvan indiyədək yadımdan çıxmayıb: 4-cü sovet döngəsi, ev 44. El arasında bura "Hacı Mehdi həyəti" adlanırdı. Bizim evin qonşuluğunda Nəsibə Zeynalova, Şirzad Hüseynov kimi sənət ustaları yaşayırdılar. Bir qədər yöndə "Atçı Salam kişinin evi" idi. Bütün Qafqazda məşhur olan quşbaz Meyranqulunun həyəti bir qədər aşağıdaydı. Bizim həyətimizin bir məşhur sakini də vardı: "Bığ Nəriman". Haqqında söhbət açmaq istədiyim Rafiqgilin ailəsi də elə quşbaz Meyranqulunun yaşadığı həyətə yaxın idi"*. Bu ötüb keçmiş zamanın xronikasını verən kiçik mətnin özündə belə biz Rafiqi, onun doğulub-böyüdüyü mühiti yaxşı görə bilirik. Zənnimcə, bu üslubu mənimsəmək müasir dövrümüzün publisistləri üçün də vacibdir.

Hacı Rafiq (Sonra şərq ölkələrini gəzmiş, müsəlmanların müqəddəs yerlərini ziyarət etmişdi. O, Hacı adını təkcə mənəvi rütbə kimi yox, həm də təxəllüs kimi seçmişdi) Dövlət Televiziya və Radio Komitəsinin məsul əməkdaşlarından biri olmuşdu. Sonralar *"Say"* qəzetinin təsisçisi və baş redaktoru kimi fəaliyyətini davam etdirmişdir. Amma *"Say"* qəzetinə qədər Ağcabədidə rayon qəzetinin baş redaktoru olmuş, o dövrün təbirincə desək, haraya göndərilmişdisə, orada ad çıxarmışdı.

Rafiq Əliyev təbiət etibarı ilə dövlətçi adam idi. O, Azərbaycanın bütövlüyünü, birliyini qızğınlıqla müdafiə edirdi. Yazılarında da dövrünə, zamanına uyğun hadisələrin mahiyyətinə işıq salmağa çalışırdı. Heç nəyi demirəm, elə I Qarabağ müharibəsinin dəhşətlərini yada salaq. 20 Yanvarı, Xocalı faciəsini... Bu hadisələrin hər biri haqqında Rafiq Əliyev elə öz zamanındaca prinsipiallıqla münasibət bildirmiş, insanları haqqa, ədalətə çağırmağa çalışmışdı. Ölkədə baş alıb gedən hərc-mərclikləri cəsarətlə tənqid edirdi. 90-cı illərin əvvəllərində məsuliyyətsiz məmurları dövlət qarşısında məsuliyyətə dəvət edirdi. Hamımızın yaxşı yadındadır ki, elə qüvvələr peyda olmuşdu ki, onlar Azərbaycanı öz içərisindən dağıtmağa cəhd göstərirdilər. Fazil Rəhmanzadə məhz bu məqamlara diqqət yetirir, həmin mərhələdə Rafiq Əliyevin obrazının necə görünməsinə dövrün şahidi kimi işıq tutur: *"Məhz belə bir ağlasığmaz vəziyyətdə hər hansı bir vicdanlı qələm sahibi də özünü sanki cəbhədə hiss etməli, şəxsiyyəti, vətəndaş mövqeyi ilə düşmənlə döyüşə girməyi, müqəddəs ölüm-dirim mübarizəsində çarpışmağı önə çəkməliydi. Rafiq bəyin həmin çağlardakı ədəbi yaradıcılığını göz önünə gətirsək, aydın görünür ki, məhz yuxarıda sadalanan kriteriyalar onun bir növ həyat tərzinə çevrilmişdir. Azərbaycanın bütövlüyün qorumaq, onu xarici qəsbkarlara qurban verməmək, bu yolda böyük dövlət xadimi Heydər Əliyevin misilsiz mücadiləsinə qoşulmaq, daha sonra ulu öndərin haqq işinin qeyrətli davamçısı İlham Əliyevin mühüm dövlət fəaliyyətində, xarici siyasətində onun dəstəkçisi olmaq şərəfli bir məsələydi.Və Rafiq Əliyev məhz bu yöndə xalqın sağlam fikir və düşüncələrinin tərcümanı qismində jurnalistik fəaliyyətini davam etdirirdi. Bu baxımdan onun baş redaktorluğu ilə buraxılan "Səs" qəzetinin nüsxələrinə nəzər yetirmək kifayətdir"*. Rafiq Əliyev zəngin adam idi. Onun radio və televiziya çıxışlarını da hər kəs maraqla izləyir, dinləyirdi. Xüsusilə şou proqramların hədsiz dərəcədə bayağılaşmasına dözə bilmirdi. Bundan başqa onun yazılarında tənqidin əsaslandırılması da xüsusi əhəmiyyət kəsb edirdi.

Rafiq Əliyev dövrümüzün çox maraqlı ictimai xadimlərindən biri idi. O, uzun illər dostu və məsləkdaşı Həkim Qənidən sonra Vahid ədəbi məclisinin rəhbəri oldu. Öz ətrafına Azərbaycanın istedadlı qələm sahiblərini toplaya bildi. Onların ədəbi səriştələrinin yüksəlməsinə çalışdı. Təsadüfi deyil ki, onun rəhbərlik etdiyi dövrdə Vahid ədəbi məclisinin bir çox görkəmli nümayəndələrinin maraqlı kitabları nəşr olundu. Onların sırasında həkim-endikrinoloq Həşim Qərvəndi də vardı.

Rafiq sözlə işləməyi bacarırdı. Çünki sözün dəyərini bilirdi. Təsisçisi və baş redaktoru olduğu *"Say"* qəzetinin adını da təsadüfi seçməmişdi. Özü rəhbərlik etdiyi qəzetin adının mahiyyətinə çox maraqlı mülahizələrlə aydınlıq gətirir: *"Düşmənlərimiz sayı yaxşı bilirlər. Hər gün doğulan türk övladlarının sayı onların gözünə ox kimi batır. Bədxahlarımızın ürəyini lərzəyə salır. İslam dünyasının coğrafiyası genişlədikcə, islam "dövlətlərinin sayı artdıqca "dənizdən-dənizədək" bir ərazidə "böyük dövlət" yaratmaq istəyən cılızların qaranlıq niyyəti günəşin hərarətinə tab gətirməyən buz kimi əriyib bədniyyətlərin özlərini içəridən boğur. Onlar yaxşı bilirlər ki, bu gün biz Azərbaycanın müstəqilliyini rəsmən tanıyan ölkələrin sayı ilə fəxr ediriksə, sabah "Azərbaycan bizi tanıyıb" - deyə sevinən ölkələr olacaq və bu ölkələr də bizlə olacaq. Çünki bizim bildiyim say da var. Say-hörmət, ehtiram et! Böyüyü say, müdriki say, ağsaqqalı say! Haqqı say, ədalətli say, halallığı say! Bütün dünya - bir çoxları etiraf etməsələr də yaxşı bilir ki, biz bu sayı nə cür sayırıq. Bu gün Azərbaycanın azadlığını və istiqlaliyyətini bərpa etdiyimiz bir vaxtda, dünyanın inkişaf etmiş demokratik dövlətləri sırasına qoşulmaq, hüquqi dövlət yaratmaq istədiyimiz bir vaxtda "say" sözünü bütün mənalarda dilimizin əzbəri etməliyik.*

*Say - gör vətənin torpağında, havasında, suyunda nələr var və bu nemətlər hara gedir?!*

*Say - gör xalqın nələr yaradır və əvəzində nə alır?!*

*Say - "dostunam" deyəni və sənə dost olanı tanı!*

*Say - zəhmət çək, ağıl işlət, güc sərf et, səriştə göstər, qazan və qazandığını say! Pul say və indən belə pulu say!*

**(Davamı 11-ci səhifədə**

*(Əvvəli 10-cu səhifədə)*

*Quran ayəsidir - buyurur ki, (bismillahir-rəhman-ir-rəhim)... vəcədəkə zalən fəhəda və vəcədəkə-əailən fəqna (sədəqəllah-ul-əzim) - yəni, ... yol axtaran bir adam kimi səni tapıb sənə yol göstərmədimi (Allah)? Və səni yoxsul tapıb və sənə zənginlik vermədimi?! Sayılanların ən şərəflisi haqqında deyilmiş bu mübarək ayələr bizim hamımız üçün ibrət olmalıdır. Bil ki, sayan sayılar və sayarsan - sayılarsan!”*. Əgər diqqət edilsə, bu cümlələrin hər biri az qala aforizm mahiyyəti kəsb edir. Fikirlər o qədər aydın və cilalıdır ki, düşüncənin dərinliyənəcən hopur. Ayrı-ayrı ifadələr haqqında düşünməli oluruq. Doğrudan da, “say” sözünün nə qədər əhatəli məna çalarları varmış və hər bir mənanın özü də dilimizin zənginliyinə işarədir. Fazil Rəhmanzadə tərtib etdiyi kitaba çox maraqlı quruluş verib. Bu kitabda biz Hacı Rafiqlə ünsiyyətdə olmuş görkəmli elm və sənət adamlarının yazılarına da rast gəlirik. Zənnimcə, Fazil Rəhmanzadə tərtib etdiyi *“Məmləkətin vətən daşı”* adlı kitabının fərqli məziyyətlərlə araya-ərsəyə gəlməsinə böyük zəhmət sərf edib. Tarix elmləri doktoru, professor Şahin Fazilin *“Tarix və şəxsiyyət: adama yovuşan adam”* adlı qeydləri də çox maraqla oxunur.

Ədəbi-elmi ictimaiyyətə məlumdur ki, Şahin Fazil maraqlı *“Səfərnamə”*lərin müəllifidir. Əfqanıstan, İran, digər ölkələri gəzib təəssüratları yazmaq böyük hünərdir. Burada, yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu səfərlərdən bəzilərində ədəbi ictimaiyyətin xüsusi inam və ehtiram göstərdiyi Rafiq Əliyev də onunla birgə olub. Biz Şahin Fazilin Hacı Rafiqin yoldaşlığından, dostluğundan necə məmnunluq duyduğunu da onun qeydlərindən hiss edirik. O, Hacı Rafiqə həsr olunmuş çox maraqlı qəsidələrin, şeirlərin müəllifidir. Onun Hacı Rafiq haqqında yazdığı qəzəli oxucular üçün təkcə məlumata görə yox, həm də zövq üçün təqdim edirəm:

*Çoxdursa yaman, yaxşı adamdır Hacı Rafiq,*
*Pərvanələrin eşqinə şamdır Hacı Rafiq.*

*“Şirvani” təxəllüslü bir insandır vəfalı,*
*Mən qəlbən inandım ki, inamdır Hacı Rafiq.*

*Xudbinlik edən şəxsə hücum etmədə şahdır,*
*Kim sadəlik eylərsə qulamdır Hacı Rafiq.*

*Çay süz ki, sənin yanına gəlsin, meyi gizlət,*
*Ey saqi, güman etmə ki, xamdır Hacı Rafiq.*

*Saymış ki, sayırlar, sayılır ki, sayılandır,*
*Çox naşirə baş püstə adamdır Hacı Rafiq.*

*Söz yox ki, yarımçıq görünən xeyli yazar var,*
*Şahin, buna yox şübhə ki, tamdır Hacı Rafiq!*

Şahin Fazilin geniş və əhatəli, az qala gündəliklər qədər ardıcıl qeydlərini izləmək xüsusi maraq doğurur. Çünki müəllif mətn boyu tez-tez poeziyaya müraciət edir.

Hacı Rafiq torpağa, yerə-yurda bağlı insan idi. Ona görə də onun Şirvan məhəbbətini şair Fazil də ona həsr etdiyi lirik şeirlərində xüsusi məhəbbətlə qeyd edir. Hacı Rafiq Şirvanı deyərək onu Şirvanın böyük klassikləri sırasına daxil edir. Kitabda Hacı Rafiqin oğlu Vüqarın qeydləri də var. Zənnimcə, Vüqarın ürək sözlərindən bir parçanı da oxuculara çatdırmaq ata-oğul münasibətlərinə bir aydınlıq gətirmək baxımındançox dəyərli olardı: *“Adətən övladlar bu və digər mənada həmişə valideynlərinin xarakter xüsusiyyətlərini özlərində ehtiva etməyə çalışırlar. Şəxsən mən də özümdən asılı olmayaraq bir sıra hallarda atama oxşamaq, onun kimi görünmək istəyindəydim. Amma elə cəhət vardı ki, bu, mümkünsüz olurdu. Məsələn, atamın qibtə doğuracaq yaddaşı vardı. Saysız-hesabsız şeir nümunələri bir nəfəsə əzbər söyləməyə qadirdi. Yüzlərlə bu və digər görkəmli şəxsiyyətin vaxtı ilə yazdıqlarından nümunələr gətirmək, əsərlərindən parçalar söyləmək iqtidarındaydı. Ən başlıcası da o idi ki, gətirdiyi misallar, xatırladığı sətirlər doğru-dürüst idi. Hər sözün mənasını, açımını real düşüncə süzgəcindən keçirib bəyan edirdi. Evimiz qonaq-qaralı olurdu. Atamın ləyaqətli dostları vardı. Onlarla yaxın təmas, üsniyyət çox xoş təsir buraxırdı”*. Belə qeydlər obrazı tamamlamaq üçün çox dəyərlidir. Çünki oğul atanı digərlərindən daha yaxşı tanıyır. Axı Rafiq Əliyev çox nüfuzlu ailə başçısı kimi də tanınırdı. Sözünün yeri və dəyəri vardı ailədə, qohumlar arasında.

Azərbaycan radiosunun keçmiş əməkdaşı Yaqub Əliyevin *“Unutmaram”*, futbol hakimi Rüstəm Rəhimovun *“Futbola ürəkdən bağlıydı”* kimi qeydlər də Hacı Rafiq şəxsiyyətinin, xarakterinin maraqlı cizgilərini təzədən yadaşa gətirir.

Rafiq Əliyev klassik ədəbiyyata dərindən bağlı idi. Onun *“Şəhriyarın çoxcəhətli şəxsiyyəti poetik əsərlərinin güzgüsündə”* adlı tədqiqatı beynəlxalq konfransda məruzə kimi dinlənilmiş və çox böyük rəğbətlə qarşılanmışdı. Bundan başqa Rafiq Əliyevin *“Sədinin Azərbaycan fidanları”* adlı tədqiqatı da çox maraqlıdır. Bu barədə də Hacı Rafiq Əliyev haqqında yazan müəlliflərin maraqlı fikirləri var. Kitabda Rafiq Əliyevin mənəvi mühitini əks etdirən dəyərli yazıları da var. O cümlədən, çox gözəl xatirə foto-şəkilləri də verilib.

Həmkarlarının Hacı Rafiq haqqında həssas dəyərləndirmə ilə yazılmış portret qeydlərinin verilməsi də xüsusi əhəmiyyət kəsb edir. Bu sıradan Əli Rza Xələflinin *“Düz söz qılıncdan kəsərlidir”* və *“80 ilin hünəri”* adlı portret esseləri xüsusi diqqət tələb edir. Ə.Xələfli yazır: *“Rafiq Əliyev ləyaqətli dost və müdrik məsləhətçidir. Onun orijinal yazı texnikası, dəqiq ifadə səriştəsi var. Dostu Həkim Qəninin ölümünə yazdığı elegiyadan bircə cümləni diqqətə çəkirəm: “Keçmiş əyyamların, çörəyə bərəkət deyilən, adamların malik olmadığına həsəd aparmadığı, malik olduqlarına isə şükür etdiyi, ağsaqqal sözünün hər şeydən uca tutulduğu, bayağılaşdırılmadığı çağların, o dövrlərdə yaşamış köhnə kişilərin qeyrət karvanını zəmanəmizə çəkib gətirən bir sarvanı da itirdik” (“Kredo” qəzeti, 12 iyul 2008). Göründüyü kimi, bircə cümlənin içərisinə bütöv bir xalq təfəkkürünə sığışdıra bilib. Bu təfəkkür göstərir ki, sözü sıxılmış zaman mahiyyətilə , yəni zaman sıxlığı ilə ifadə etmək olar. 5-10 sözdən ibarət cümlənin içərisində həm dosta sədaqət var, həm tarixi-ənənə var, həm də mənəvi dəyərə tapınmanın gücü görünür. Rafiq Əliyev böyük ədəbiyyatın da cəfakeşidir. Klassik irsimizi, incəsənət tariximizi, musiqini və rəssamlığı incəliklərinə qədər mənimsəmiş ziyalıdır. Ona görə də onun sözünün bütün məqamlarda çəkisi var. “Vahid” poeziya məclisinin rəhbəri kimi sağlam sözün, ləyaqətli sözün, ədəbi-bədii sözün keşiyindədir”*. Bundan sonra Əli Rza Xələflinin dostu haqqında dediyi *“Rafiq Əliyev*




*güclü şəxsiyyətdir, sözü və əməli bir-birini tamamlayır”* kimi qeydlərinə necə inanmayasan? Məqalə müəllifi Rafiq Əliyevi düz danışan insan kimi xarakterizə edir və şəxsiyyətin gücünün düz danışmaqda olduğunu inamla qeyd edir.

Kitabda *“80 ilin hünəri”* adlı daha bir portret esseni də Ə.Xələfli Rafiq Əliyev obrazına bələdliklə qələmə alıb. Biz bu qeydlər əsasında Hacı Rafiqin daha bir yaradıcılıq istiqamətini də müşahidə edə bilirik. Bu da onun musiqi və teatr sahələrinə diqqəti ilə bağlıdır.

Hacı Rafiq müasirlərinin də qeyd etdiyi kimi kitab kimi adam idi: *“Düz qamət, sərrast addımlar, rəvan və ağıla tabe olan danışıq, bir sözlə, aydın nitq... Dostum və eləcə də, insanlığın dostu kimi tanıdığım Hacı Rafiqin sözlə rəsmini belə başlamağım təsadüfi deyil. Kim Hacı Rafiqi tanıyırsa, saydığım epitetlərin də doğruluğunu təsdiq edər”*. Sözün həqiqi mənasında, Xələflinin də qeyd etdiyi kimi Hacı Rafiq 60 ildən çox qələm işlədib. Heç də asan məsələ deyil ki, yarım əsrdən çox yazı, mətbuat aləmində olasan, mübahisəli məsələlərə qarışasan, hər bir mübahisənin vicdanlı həllinə nail olasan və elə səhv etməyəsən ki, sonra bunun ağırlığını çəkəsən. Doğrudan doğruya Hacı Rafiq ona görə 50 il bundan əvvəl yazdığına da təzədən inamla imza atmaq gücündə olan şəxsiyyət idi. Çünki bütün mühakimələrində əsas dəyər kimi insanlığı görürdü.

AzTv-nin keçmiş baş rejissoru, Respublikanın Xalq Artisti Vasif Babayevin *“Tarixin qəribə istəkləri var”* adlı qeydlərində Rafiq haqqında deyilən bir söz də mənim könlümü oxşadı. Müəllif qeyd edir ki, sağlam yaradıcılıq həyatı yaşamış Hacı Rafiq Əliyev heç bir mükafata, ödülə layiq görülməsə də onun qələm məhsullarının dəyəri çoxsaylı oxucularına yaxşı bəllidir.

Abuzər Bağırov Moskvada yaşayan görkəmli elm xadimlərimizdən biridir. O, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun professoru, filologiya elmləri doktorudur. Ən başlıcası, Azərbaycan Yazıçılar Birliyi Moskva bölməsinin sədridir. Şübhəsiz, Hacı Rafiq Əliyevlə də Azərbaycandakı əlaqələrini unutmayıb. Yəqin ki, elə Hacı Rafiqin də ayrı-ayrı vaxtlarda onunla görüşləri ən xoş təəssüratlar kimi unudulmur. Professor Abuzər Bağırovun qeydləri arasında bir maraqlı məqama da rast gəldim. Axı Hacı Rafiq klassik ədəbiyyatın sözün həqiqi mənasında bilicisi idi. Yəqin ki, elə buna görə Abuzər Bağırov yazıb: “Məni maraqlandıran bir məsələ ilə bağlı ondan soruşdum:

*“Rafiq, nə əcəb belə dərin elmi hazırlığınla dissertasiya müdafəsinə baş qatmırsan?”*

Cavabı belə oldu:

*“Zamanım yoxdur. Bir də düzü, buna gərək görmürəm. Jurnalistikadan ayrı yaşamağımı heç ağlıma da gətirmirəm. Elm ayrı məsələdir. Jurnalistika mənim həyatımın mühüm bir parçasıdır. Bir də düzü, zənn edirəm ki, özümü jurnalistikada tapmışam”*. Dəqiq, aydın müşahidələr əsasında qələmə alınmış təəssüratdır.

Mən kitabları ömrümün bəzəyi hesab edirəm. Bu mənada Rafiq kimi qələm adamlarının da ömrünü peşələrinə, sənətlərinə sevgiləri bəzəyib.

Respublikanın əməkdar jurnalisti Ağa Hüseynovun qeydlərində də Hacı Rafiqlə bağlı maraqlı məqamlar var. Xüsusilə bu qeydlərdə Hacı Rafiqin siyasi baxımdan savadlı şəxsiyyət olduğu göstərilir.

*“Məmləkətin vətən daşı”* kitabı istedadlı publisist, yazıçı, tədqiqatçı Fazil Rəhmanzadənin çox dəyərli *“Son söz”*ü ilə bitir: *“Hər bir qələm sahibi yazılarında yaşayır, onun qurduğu dünya yalnız özünə aid olmur. Yaradıcılıq məhsullarından bir parası kimlərinsə qəlbinə yol tapır. Bəziləri insanların müqəddəs arzularının təcəssümünə çevrilir, bu və digərləri oxucunun istinadgahına çevrilir, bir başqasının dünyagörüşünün daha da zənginləşməsinə təsir göstərir: Hacı Rafiqin yaradıcılıq çeşməsindən su içib pərvəriş tapmış qələm məhsulları kimi”*. Burada bir fikri də qətiyyətlə işlətmək olar. Azərbaycan cəmiyyətinin mənən zənginləşməsində Hacı Rafiqin ustadlığından dərs alıb, sənətini kamilliyəcən mənimsəmiş yeni nəsil jurnalistlərin də xidmətləri az deyil. Onlar zaman-zaman Hacı Rafiqi unutmayacaqlar, haqqında danışacaqlar, yazacaqlar.

Daha bir kitabı kitabsevərlərə tanıtmaq istədim. Daha doğrusu, həm kitabı, həm də kitabın ədəbi qəhrəmanını.

Keçmiş dövrlərdə kitabsevərlər cəmiyyəti vardı. Həmin cəmiyyət fəal işləyirdi, dəyərli kitablar təbliğ olunurdu. Çox istərdim ki, televiziya ilə yeni, maraqlı kitablar cəmiyyətə təqdim olunsun. Bu da kitabın təbliğində xüsusi əhəmiyyət kəsb edərdi.

Çox istərdim ki, kitabı öyrənən, kitabı təbliğ edən qeyri-hökumət təşkilatları da olsun. Yalnız kitaba münasibəti, ümumcəmiyyət səviyyəsinə qaldırsaq, onda insanlığı da uca tutmuş, insanı da zənginləşdirmiş olarıq.

***26.01.2023***